# Soltanov və başqaları Azərbaycana qarşı
# Qərar – 16.06.2016

İş 2010-cu və 2011-ci illərdə müxtəlif tarixlərdə 5 Azərbaycan vətəndaşının (**cənab Səxavət Şirsoltan oğlu Soltanov, cənab Əmirulla Balahüseyn oğlu Dadaşzadə, cənab Elnur Abdulla oğlu Məcidli, cənab Arzuman Fərhad oğlu Məcidov, cənab İntiqam Kamil oğlu Əliyev**) İnsan Hüquqları və Əsas Azadlıqlarının Müdafiəsi haqqında Konvensiyanın 34-cü maddəsinə əsasən verdiyi şikayət əsasında başlanmışdır.

Ərizəçilər 7 noyabr 2010-cu il parlament seçkilərində müxtəlif seçki dairələrində namizəd qismində qeydiyyata alınmaq üçün müraciət etmişlər. Müvafiq Dairə Seçki Komissiyaları müxtəlif tarixlərdə ərizəçilərin müraciətlərini təqdim edilmiş imzaların bəzilərinin etibarlı olmaması səbəbindən təmin etməmişdir.

Məhkəmə bu işdə aşağıdakı maddələrin pozuntusuna yol verildiyi qənaətinə gəlmişdir:

- 1 saylı Protokolun 3-cü maddəsinin pozuntusu;
- 34-cü maddənin pozuntusu.

Məhkəmə hər bir ərizəçiyə mənəvi ziyana görə 10 000 avro və məhkəmə xərcləri və digər məsrəflərə görə 4 ərizəçiyə birlikdə 4 000 avro, bir ərizəçiyə isə digər məsrəflərə görə 100 avro məbləğində kompensasiya təyin etmişdir.

**İcra etdi:** İnsan Hüquqları və İctimaiyyətlə
Əlaqələr Şöbəsinin aparıcı məsləhətçisi
Gülarə Abdullayeva
Tel.: 489-07-07 (daxili nömrə - 8095)